INTERNATIONAL JOURNAL OF FILOLOGIA

International Journal of Filologia (IJOF)
ISSN: 2667-7318 Yıl: 4, Sayı: 5, Yayımlanma Tarihi: 30.06.2021

# MODERN AZERBAYCAN ŞIIRININ BIR PARÇASI OLAN RAP TÜRÜNÜN SORUNLARI, ÖZELLIKLERI VE SANATSAL DILI

# PROBLEMS, FEATURES OF THE GENRE AND ARTISTIC LANGUAGE OF RAP, WHICH WAS PART OF MODERN AZERBAIJANI POETRY

# MÜASİR AZƏRBAYCAN POEZİYASININ TƏRKİB HİSSƏSİ OLAN REPİN PROBLEMATİKASI, JANR XÜSUSİYYƏTLƏRİ, BƏDİİ DİLİ VƏ TƏSVİR VASİTƏLƏRİ

**Prof. Dr. Salide ŞERİFOVA**

Azerbaycan Ulusal Bilimler Akademisi Nizami Genjavi Edebiyat Enstitüsü, salidasharifova@yahoo.com

**Makale Bilgisi / Article Information**

**Makale Türü:** Araştırma Makalesi
**DOI:** ijof.935930
**Yükleme Tarihi:** 11.05.2020
**Kabul Tarihi:** 25.06.2021
**Yayımlanma Tarihi:** 30.06.2021
**Sayı:** 5
**Sayfa:** 85-102

**Article Information:** Research Article
**DOI:** ijof.935930
**Received Date:** 11.05.2020
**Accepted Date:** 25.06.2021
**Date Published:** 30.06.2021
**Volume:** 5
**Page:** 85-102

**Atıf / Citation**

Şerifova, S. (2021). Modern Azerbaycan Şiirinin Bir Parçasi Olan Rap Türünün Sorunlari, Özellikleri ve Sanatsal Dili. *International Journal of Filologia*, 4 (5), 85-102.

Şerifova, S. (2021). Problems, Features of the Genre and Artistic Language of Rap, Which Was Part of Modern Azerbaijani Poetry. *International Journal of Filologia*, 4 (5), 85-102.

International Journal of Filologia (IJOF) ISSN: 2667-7318 Yıl: 4, Sayı: 5, Kış 2021
Yayımlanma Tarihi: 30.06.2021

*Prof. Dr. Salide ŞERİFOVA*

# MODERN AZERBAYCAN ŞİİRİNİN BİR PARÇASI OLAN RAP TÜRÜNÜN SORUNLARI, ÖZELLİKLERI VE SANATSAL DİLİ

## Müasir Azərbaycan Poeziyasinin Tərkib Hissəsi Olan Repin Problematikası, Janr Xüsusiyyətləri, Bədii Dili və Təsvir Vasitələri

## Problems, Features of The Genre and Artistic Language of Rap, Which Was Part of Modern Azerbaijani Poetry

**ÖZ**

Azerbaycan toplumunda rap tutumu, genç ve yaşlı nesiller arasındaki belirsizlik nedeniyle dikkat çekicidir. Özellikle ilgili olan, genç nesille karşılaştırıldığında eski neslin rap'i kabul etmemesidir. Rap'i reddetme nedenlerinden biri, ona eşlik eden müzik değil, bazı rap örneklerinde saldırgan kabul edilen şiirin metni ve edebi dilde kullanılmayan kaba sözler ve ifadeler, özellikle de konu, yani ünlülerin çiğnenen düşüncelerinin dile getirildiği şiirin metni.
Rap hakkındaki olumlu ve eleştirel görüşler, saygı ve hoşnutsuzluk şeklinde yansıltılmıştır. Rap'te, olumlu fikirleri teşvik etmek saygı, olumsuz fikirleri teşvik etmek ise muhalefet olarak sunulur.
Rap, müziğin ritmine göre yapılarak ve hiciv, alay ve eleştirel gerçekçiliği yansıtıyordu. Rap, müzik ve şiirin sentezinin yarattığı harika bir sanat örneğidir.
**Anahtar Kelimeler**: rap, modern Azerbaycan şiiri, rap problemleri, rap türü, respect, diss

**XÜLASƏ**

Azərbaycan cəmiyyətində repə münasibət gənc və yaşlı nəsil arasında bir mənalı olmaması ilə diqqəti cəlb edir. Yaşlı nəsil gənc nəslə nisbətən repi qəbul etməməsi ilə gündəmdədir. Repin qəbul edilməməsinin səbəblərindən biri onu müşayiət edən musiqi deyil, bəzi rep nümunələrində qəbahət hesab edilən, ədəbi dildə işlənməyən kobud söz və ifadələri, əsasən də topika, yəni hər kəsə bəlli olan, çeynənmiş fikirləri səsləndirən şeir mətnidir.
Repin mövzusunda müsbət və tənqidi fikirlər özünü respect və diss şəklində büruzə verir. Repdə müsbət fikirlərin təbliği respect, mənfi fikirlərin təbliği isə diss kimi təqdim edilməkdədir.
Rep musiqi ritmi ilə söylənilənilərək özündə satiranı, sarkazmı, tənqidi realizmi əks etdirir. Rep musiqi ilə nəzm növünün sintezindən yaranmış mükəmməl sənət nümunəsidir.
**Açar sözlər:** rep, müasir Azərbaycan poeziyası, repin problematikası, rep janr kimi, respect, diss

**ABSTRACT**

The attitude to rap in Azerbaijani society is notable for ambiguity between the younger and older generations. Especially relevant is the fact that the older generation, in comparison with the younger generation, do not accept rap. One of the reasons for refusing to rap is not the music that accompanies it, but the text of the poem, which in some samples of rap is considered offensive, as well as rude words and expressions that are not used in literary language, especially the topic, that is, the text of the poem in which the chewed thoughts of the famous are expressed.
Positive and critical views of rap come in the form of respect and diss. In rap, promoting positive ideas is presented as respect, and promoting negative ideas as diss.
The rap was performed to the rhythm of the music and reflected satire, sarcasm and critical realism. Rap is a great example of art created by the synthesis of music and poetry.
**Key Words**: rap, modern Azerbaijani poetry, rap problems, rap genre, respect, diss

Keçən əsrin 70-ci illərində zəncilər tərəfindən Amerikada ghetto adlı məhəllələrdə yaranmış "rep" musiqisi Azərbaycan mədəniyyətində özünəməxsus yer tutmaqdadır. Zəncilərin məruz qaldıqları irqçiliyə qarşı etiraz sənəti kimi formalaşmış özünüifadə tərzi hip-hop adlanaraq təkamül etməkdədir. Hip-hop adlanan sənət növünə cəmiyyətin problem və əksliklərini əks etdirə bilən musiqi növlərindən biri olan rep də aid edilir. Ciddi qəbul edilməyən "rep" son dövrlərdə gənclər arasında geniş yayılmaqda və ən çox dinlənilən musiqi janrı kimi formalaşmaqdadır. Repçi tərəfindən ifa edilən rep xüsusi intonasiya ilə ya danışılaraq, ya da sürətlə və ritmik şəkildə mahnı kimi ifa edilərək qafiyələnmiş və ya sərbəst (sərbəst forma qafiyəsi) lirika şəklində dinləyiciyə çatdırılmaqdadır. Rep və ya Rap özü "Rhytm And Poem", yəni ritm və şeirvə ya "Rhytmic African Poetry", yəni ritmik Afrika şeiri sözlərinin qısaltması yolu ilə formalaşmışdır. Repin əsas janrları kimi National Rap, Soft Rap, Flex, Reggaeton, Dancehall Rap və s. mövcuddur.

Azərbaycan cəmiyyətində repə münasibət gənc və yaşlı nəsil arasında bir mənalı olmaması ilə diqqəti cəlb edir. Yaşlı nəsil gənc nəslə nisbətən repi qəbul etməməsi ilə gündəmdədir. Repin qəbul edilməməsinin səbəblərindən biri onu müşayiət edən musiqi deyil, bəzi rep nümunələrində qəbahət hesab edilən, ədəbi dildə işlənməyən kobud söz və ifadələri, əsasən də topika, yəni hər kəsə bəlli olan, çeynənmiş fikirləri səsləndirən şeir mətnidir. Cəmiyyət tərəfindən bir mənalı qəbul edilməməsinə rəğmən repdə qələmə alnmış şeirlərin müasir dövrdə kiçik dairələr tərəfindən qəbul edilməsi repin inkişaf etməsinə stimul olmuşdur. Repdə qələmə alınmış nəzm nümunələri cəmiyyətin, xüsusilə də, ədəbi dairələrin diqqətini cəlb etməkdədir.



Azərbaycanda repin yaranma tarixi Çingiz Mustafayev tərəfindən oxunmuş "Dünənki keçdi" replə əlaqələndirilir. Daha sonra Anar Nağılbaz, Elşad Xose (Elşad Əliyev), "Dəyirman" qrupu, Uran (İbrahim İbrahimov), Hüseyn Dərya, H.O.S.T. Alliance (Qaraqan, Promete, AiD, Camal Əli, ABD Malik, Qurd, Errant, Feck, Felon de Jure, Dərviş), Miri Yusif, Okaber (Orxan Mustafazadə), Xpert, KQB (Kamal Qarabasma), Rüzgar, Epi (Əkbər Novruzlu), Noton, Tibu (Teymur Ağayev), Yap10, Karo Aslixan, CavX, Paster, Dost, OD synaps, Ramil Nabran Ekspert (Şəhriyar), Camal Əli, Əli Türk (Feyruzzadə Əli), Pranga (Cavid Əmirxanlı) və s. peşəkar və bu sahədə yeni addım atan repçilər və rep qrupları repin təkamülündə xidmət göstərmiş və göstərməkdədilər. Anar Nağılbazın "Kasıbların mahnısı", "Dəyirman" qrupunun "Ya Qarabağ, Ya Ölüm", Elşad Xosenin "Həyat dəyişilməzdir", Hüseyn Dəryanın "Kef elə", Uranın "Kor zabit", Pasterin "Ölənə qədər", Ziq Zaqın "Rap fəxrimsən", Qurdun "Rəqs edir hər kəs", Camal Əlinin "Çək" və s. rep nümunələri repsevərlərə əsil hədiyyə idi.

Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayev və "OZAN" qrupu tərəfindən ifa olunmuş "Dünənki keçdi" repi ilk rep nümunəsi kimi əhəmiyyət kəsb etməkdədir. Azərbaycanlı filosof, bəstəkar-şair, naşir, fəlsəfə elmləri namizədi, dosent Rasim Müzəffərlinin (1975) Azərbaycan dilində ilk hiphop nümunəsi hesab olunan "Dünənki Keçdi" (1983) repi adını Azərbaycan tarixinə qızıl hərflərlə yazdırmağı bacarmış, Xocalı qətlyamını bütün dünyaya tanıtdırmış Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayev (1960- 1992) tərəfindən ifa edilmişdir. Çingiz

Mustafayev Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1993-ci il tarixli 294 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. Dəyirmanın "Ya Qarabağ, Ya Ölüm" repi isə repdə çevriliş edərək repi cəmiyyətdə qəbul edilməsinə təkan verdi. Elşad Xose (Elşad Əliyev) Azərbaycan rep tarixində Vertual-Repin yaradıcısı kimi özünü tanıtdı. Əfsanəvi reper Anar Nağılbaz "Azərbaycan repinin atası" adlandırıldı. Anar Nağılbazın ifa etdiyi replərin milliliyi, xəlqiliyi qorunub saxlanılmaqla, mətnlərin heca vəzninə uyğun tərtib edilməsi ilə diqqəti cəlb etdi. Bu baxımdan, onun ifa etdiyi replər ənənəvi poeziya nümunələri ilə səsləşirdi.

**Repin problematikası**

Repin problematikasında müsbət və tənqidi fikirlərin səsləndirilməsi əsas yer tutmaqdadır. Repdə müsbət fikirlərin səsləndirilməsi respect, mənfi fikirlərin səsləndirilməsi isə diss adlandırılır.

Müəllifi Rasim Müzəffərli, ifaçısı Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayev olan "Dünənki keçdi" rep nümunəsində cəmiyyətdəki nöqsanlarla bərabər ailə dəyərlərinə hörmət, anaya ehtiram əksini tapmışdır. Repdə anaya "Əziz anamdan" deyə müraciət edilməsi anaya olan sevgi və ehtiramı əks etdirir:

Səhər -səhər mən oyanıb bugün yuxudan,

Tez-tələsik xəbər aldım ***əziz anamdan***.

İnsanların həyatında əvəzsz yerləri olan əşyaların vacibliyi, insanların həmin əşyalarla ayrılmaz dostluğunun təbliği isə Azərbaycan rep qrupu olan H.O.S.T-un (Hava Od Su Torpaq) "4 dostum (PROMETE)" adlı repində rast gəlirik:



Bu yaxında bir sakitliyim, bir kompyüterim,

bir qələmim bir dəftərimdi dostlarım mənim.

Onları birləşdirmək üçün ayrılmaz yollarım mənim.

Dörd qolluyam, onlar qollarım mənim.

Bitməz onların mənə, onlara da suallarım mənim.

Maraqlı məqam odur ki, repdə insanın dostlarının cansız əşyalar olması əksini tapmışdır. Bunlardan biri gözə görünməyən məhfum olan sakitlik, o birisi isə kompyüter, qələm və dəftərin ayrılmaz dosta çevrilməsinin təsviri müasir dünyanın sosial bəlalarını əks etdirir. İnsanların bir-birilərindən təcrid olunmasının faciəsi əksini tapır.

Azərbaycan rep nümunələrində əsasən, Qarabağ və Qarabağda günahsız yerə həlak olmuş insanların faciəsi əksini tapmışdır. Məsələn, "Dəyirman" qrupunun "Ya Qarabağ, ya Ölüm" adlı repində Qarabağda günahsız şəkildə qətlə yetirilmiş insanların faciəsi göz önündə canlandırılmışdır. Qeyd etmək lazımdır ki,

"Dəyirman" qrupunun sayca ikinci albomu olan "Qurd" adlı albomdakı "Ya Qarabağ, ya ölüm" repi Çingiz Mustafayevin Xocalı soyqırımı haqqında çəkdiyi filmlə remiks olunaraq ictimaiyyətə təqdim edilmişdir.

QARABAĞda qapqara bir dastan yazılarkən.
O günahsız insanlar gülləyə basılarkən.
Körpələrin başları daşlarla əzilərkən.
Kimsə mənə deyəməz, dişlərini sıx artıq.
Ya QARABAĞ, Ya Ölüm
Başqa Yolu Yox Artıq!

Tuncər Əlinin "Orda bir yol var uzaqda" repinin problematikasında azadlıq, şəhidlik mövzusu aktuallıq kəsb etməkdədir:

Orda bir Qarabağ, orda bir Təbriz
Orda bir qadın bir sabaha başlayacaq ərsiz
Orda şəhid anaları cənnətə yas saxlayır
Orda Tanrı Dağının bozqurdu Türkə ağlayır.



"Cavab ver" repində qanlı savaşların törətdiyi fəsadlara da aydınlıq gətirilməsi nəzərdən qaçmır:

Qanlı savaşlarda əzilən körpələr.
İnsanlar hər şeyi məhv edər.

Repin problematikasında narkotikanın gənclərin həyatını məhv etməsinə, ailələrin faciəsinə səbəb olması açıqlanmışdır. Anar Nağılbaz "Narkodünya" repində narkotikə, onun törətdiyi faciə və fəlakətlərə etiraz səsini yüksəltmişdir:

Həyat axtarıram mən narkotiksiz,
Bir narkotik olub hər bir qəm, kədər.
Qulaqda bir söz var, "Narkodünya"
Dil üstdə bir köz var", "Narkodünya"

"Narkodünya" repinin ifaçısı Anar Nağılbaz özü narkotik qəbulunun faciə olmasını müsahibələrinin birində münasibət bildirərək qeyd etmişdir ki, "Narkodünya" repinin ideyasını yaxın qardaşlar, dostlar vermişdilər. Mahnı sadəcə, bir problem kimi ortaya çıxmışdı, şübhəsiz ki, azad dövrə gələndə orda həmişə yaxşılarla bərabər qurbanlar da olur. Ümumiyyətlə, həyat bunun üzərində qurulub. Narkotika gənclərin həyatını çox pis şəkildə dağıdıb, çoxlarının həyatına son qoyub, çox ailələri ağlar qoyub." 1

Anar Nağılbazın "Anama deyin" ("Köhnə kişilər") adlı repində gələcəyə ümidi əks etdirən sözlər yer almışdır. Anar Nağılbaz xəyallarını həyata keçməyən bir nağıl kimi təqdim etmişdir. Repdə insanın həyata keçməyən istəklərinin insan ömründən getməsi qabardılmışdır:

Mənim nağıllarım bir eşq, bir həyat.

Çiçəyin çiçəklə sevgi nəğməsi.

Çiçəyin alovla mübarizəsi.

Çiçəyin bir qurtum su istəməsi,

Uzaqda sanmışam nağılı niyə?

Hər zaman yandığım nağıl olubmuş.

Mənim həyatımda keçən hər sükut,

Hər sakit dəqiqə, sakit saniyə

Sonralar andığım bir nağıl olmuş.



Dünyasını nağıla çevrilməsini məcazi mənada təqdim etmiş, puç, məhv olmasını aşılamışdır. Ancaq replərin mövzusunda sosial etirazın olmaması kimi fikirlərin səsləndirilməsi repə qarşı olan haqsızlıq kimi dəyərləndirilməlidir. Bəstəkar Cavanşir Quliyevin Kəramət Böyükçöllə "Yazdığım himni "KQB agenti" sözünə görə geri aldım" müsahibəsində ona ünvanlanmış "Azərbaycanda da reperlər var. Elşad Xose, Anar Nağılbaz, rəhmətlik Hüseyn Dərya... Onların yazdıqları rep deyildi?" sualını cavablandırması təəssüf doğurur. Bəstəkarın verdiyi cavaba əsasən, Azərbaycanda formalaşmış replərdə sosial etirazın olmaması iddia edilmişdir: "– Hamısı məişət reperləridir, çünki tənqidləri məişət səviyyəsində idi. Sosial etiraz yox idi. Bizim reperlərin etirazları bilirsiniz hansı səviyyədə idi? Tramvay vaxtında gəlmədi, avtobus gecikdi, maşın yolu kəsdi, sular partladı və s. Belə rep olmur. Köklü şəkildə sosial etiraz olmadı, ona görə bizdə rep alınmadı". [2] Lakin "Dəyirman" qrupunun "Ya Qarabağ, ya Ölüm", Anar Nağılbazın "Narkodünya", "Anama deyin" və digər replərdə sosial etiraz qabarıq şəkildə əksini tapa bilmişdir. Cavanşir Quliyevin qeyd etdiyi "sosial etiraz"ların replərdə

[1] "Narkotik çox ailələri ağlar qoyub // http://pia.az/amp/?id=23800 // https://publika.az/news/qirmizi/11256.html

[2] Kəramət Böyükçölün Cavanşir Quliyevdən aldığı "Yazdığım himni "KQB agenti" sözünə görə geri aldım" adlı müsahibəsi // https://lent.az/news/266178

əksini tapması, demək repin Azərbaycan mədəniyyətində mövcud olduğunu təsdiqləyir. Həqiqətən də, rep Azərbaycan mədəniyyətində mövcuddur, onun da öz pərəştişkarları var. Çünki zövqlər, düşüncələr müxtəlif olduğu üçün, mədəniyyətin, ədəbiyyatın müxtəlif sahələrinə də münasibətlərin müxtəlif olması qaçılmazdır. Özünü labüd proses kimi büruzə verir.

Hər bir şəxsin dinə təkbaşına, həmçinin başqaları ilə birlikdə etiqad etmək, əqidəsini ifadə etmək və yaymaq hüququna malikdir. Bu baxımdan da, repdə dini dəyərlərin təbliği yolveriləndir. Ancaq dini etiqadın təbliğində irqi, milli, dini, sosial ədavət və düşmənçilik yaratması məqsədi ilə təbliğ edilməsi yolverilməzdir. İnsan ləyaqətini alçaldan dini dəyərlərin təbliği də qadağandır. Dini dəyərlərin təbliği və ya antitəbliği replərin problematikasında əsas problem kimi özünü büruzə verməkdədir. Qaraqanın "Bayraq" adlı repində dini dəyərlərə qiymət verilməməsi qabardılmışdır.

Bağışla məni Allah, mənim dinim Vercace.

Məscidim bar, peyğəmbərlərim ulduzlar.

Bağışla məni Tanrı, mən günahkar insan.

Müəllifin dini dəyərlərə qiymət verilməməsini bir qəbahət kimi qəbul etməsini əks etdirməsi hələ insanlar arasında bu hissin ölmədiyini, məhv olmadığını göstərir. İnsan öz yanlışını anlayıb Uca Yaradanından əfv diləyirsə, bu həm insanlığın, həm də dini dəyərlərin hələ ölmədiyinə, insanların qəlbinə, ruhuna Allah sevgisi ilə yanaşı ehtiramını əks etdirir.



"Ya Qarabağ, ya ölüm" adlı rep nümunəsində də İslama, islam dininə riayət edənlərə səsləyiş özünü göstərir:

Hardasan, İslam əhli?!

Hə? De, sən görmürsənmi bu zülmü, bu vəhşəti?!

Bu gün vəhdət günüdür, gerçəkləşdir vəhdəti.

"Allahu Əkbər" deyib tək yumruq ol.

Ya QARABAĞ, Ya Ölüm

Başqa Yolu Yox Artıq.

"Hardasan, İslam əhli?!" kimi ünvanlanmış sualda çağırış özünü büruzə verməkdədir. Torpaqlarını, şərəfini düşməndən qorumaq üçün cihad kimi səslənilir.

Dövlət atributlarının təbliğinə replərdə rast gəlmək mümkündür. Azərbaycan Respublikasının Dövlət bayrağının əhəmiyyət kəsb etməsi siyasi xadimlərimiz tərəfindən daim vurğulanmışdır. 2010-cu il sentyabrın 1-də Bakıda Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dövlət bayrağının xüsusi əhəmiyyətini qeyd etmişdir: "Bizim

bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli Dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun, Azərbaycan bayrağına!” [3]

Qaraqanın “Bayraq” adlı repində Azərbaycan dövlətinin suverenliyinin rəmzi olan bayrağa xitab edilərək, ona göstərilən biganəlik əksini tapmışdır:

Salam, üç rəngli bayraq, mən yalançıyam.

Mən ancaq bayram günlərində sevirəm səni.

Azərbaycan Dövlət bayrağına xitab edən müəllifin xəcalət dolu hissləri özünü göstərmişdir. Bayrağımızın yalnız bayram günlərində xatırlanmasını faciə kimi qəbul etməsində haqlıdır.

Salam bayraq, mən sənin nankor övladın.

Yüz yola əl atıram əsgərlikdən qaçmaq üçün.

Sən mənə verdin həyat, mənə verdin azadlıq.

Yaxşı, bəs mən nə eləmişəm sən bayraq üçün.



Bayraq üçün heç nə etməməsini etiraf etmək vətən qarşısında borcundan çıxa bilməməyin əksidir.

Qeyd etdik ki, repin mövzusunda müsbət və tənqidi fikirlərin səsləndirilməsi iki cür adlandırılmışdır: respect və diss. Repdə müsbət fikirləri təbliğ edən mövzu respect, mənfi fikirləri təbliğ edən mövzu isə diss kimi təqdim edilməkdədir.

“Respect” sözünü ingilis dilindən dilimizə çevirdikdə hörmət, ehtiram göstərmək, iltifat etmək, təqdis etmək, saymaq deməkdir. Repdə respect məhz müsbət fikrin səsləndirilməsini nəzərdə tutur. Helios ft Rezo MS-nin “Son uçuş” adlı repdə pilot Rəşad Atakişiyevə olan ehtiram və hörmət əksini tapmışdır:

Göydələndən qartal endi

Su altında qərq olub

Heç birimiz bilmədik

Amma boğa bilərdi dərd onu.

Neçənci bir itkidi bu

---

[3] https://president.az/azerbaijan/symbols

Gör neçənci qəm yaşadıq.

Neçənci yaş fərqi yoxdu

Qəhrəmanlar az yaşadı.

Diss "dissrespect" sözündən yaranmış, dilimizdə hörmətsizlik, ehtiramsızlıq, sayğısızlıq mənasını bildirir. Repdə "dissrespect" tənqidi fikir səsləndirmək mənasında işlədilir. Məsələn, Anar Nağılbazın "Küçə qızı", "Fahişə" kimi repləri "dissrespect" nümunəsi kimi diqqəti cəlb edir. Belə rep nümunələrinin ilk misrasından son misrasına kimi tənqidi fikirlər səsləndirilməkdədir. Anar Nağılbazın bu replərində səsləndirdiyi fikirlər cəmiyyətdə yüngül əxlaq tərzi sürən qızların tənqid edilməsinə yönəldilmişdir. "Küçə qızı" repində reper belə qızların düzələ bilməyəcəyinə pessimist fikirlərini səsləndirmişdir:

Nə sən məni gətirəcəksən yola,

Nə mən səni gətirə biləcəm Allaha.

Bir dəfəlik bunu bil ki,

İnanmıram daha...

Ey kasıb ailədən çıxan qız.

Mindiyin maşınlar baha,

Geyindiyin geyimlər baha.



**Repin janr xüsusiyyətləri**

Repin janr xüsusiyyətlərinə diqqət yetirdikdə maraqlı məqam diqqəti cəlb edir. Belə ki, Amerikada formalaşmış, Amerika poeziyası hesab edilən rep əsasən ritmik bir janr kimi diqqəti cəlb edir. Ancaq maraqlı məqam Azərbaycan rep nümunələrində qafiyələrin klassik Şərq şeirinin formalarından biri olan məsnəvilər kimi misralarının cüt-cüt qafiyələnməsidir. Repdə də məsnəvidə olduğu kimi qoşa misranın bir-birilə qafiyələnməsini müşahidə edirik. Bu qoşa misralar müstəqil, bitmiş bir fikir ifadə edə bilir. Qeyd etmək lazımdır ki, heç də bütün ikilikləri məsnəvi kimi qəbul etmək düzgün deyil. Məsələn, qəzəl, qəsidə, qitə və s. qafiyələnmə məsnəvidən fərqli şəkildə qafiyələnir. Məsnəvidə qafiyələnmə aa, bb, vv, qq, ğğ və s. şəkildə olursa, qəzəldə birinci beyt həmqafiyə olur, qalan beytlərdə isə birinci misra sərbəst buraxılır, ikinci misra qəzəlin birinci beyti ilə həmqafiyə olur. Qəsidədə də, qitədə də bu prosesi izləyirik. Məsnəvi şeirində müəllifin qafiyə qurmasında sərbəst olması repdə də özünü büruzə verir. Qeyd edək ki, Ramiz Rövşənin "Allah bizim Allahdı" şeirinə Cavanşir Quliyevin bəstələdiyi rep kimi "Ac həriflər" televiziya tamaşasında səsləndirilmiş ilk nümunə kimi də maraq kəsb edir:

Bizdə o sifətdi, nə sifətdi, ***belə qardaş,*** (a)

Bir zərrə dəyişməz niyə ildən-***ilə qardaş,*** (a)

Bir razı qalan varmı bugünkü ***işimizdən,*** (b)

Gəl, söhbət açaq, şanlı, gözəl ***keçmişimizdən.*** (b)

Allah bizim Allahdı keçər ***günahımızdan,*** (v)

Allah bizi saxlasın hələ ***sabahımızdan.*** (v)

Eyni qafiyənin yalnız bir beyt təşkil edən qoşa misralar daxilində işlənməsinin şahidi oluruq. Hər qoşa misranın, yəni beytin öz qafiyəsi olması diqqəti cəlb edir. Məsələn, birinci misrada günahımızdan, sabahımızadan, ikinci misrada belə qardaş, ilə qardaş, üçüncü misrada işimizdən, keçmişimizdən, dördüncü misrada günahımızdan, sabahımızdan kimi qafiyələnmə özünü göstərmişdir.

Ağız dolusu gör nə qədər ***dastanımız var,*** (q)

Qarpız dolusu gör nə qədər ***bostanımız var.*** (q)

Koroğlulara söz qoşub aşiq ***dilə gəlsin,*** (ğ).

Top nədir, tüfəng nədir, mizrab ***ələ gəlsin,*** (ğ)

Düşmənləri sazla qovarıq ***torpağımızdan,*** (c)

Yetimlərə paltar tikərik ***bayrağımızdan.*** (c)

Çoxdandı ki, əl üzmüşük öz ***Allahımızdan,*** (ç)

Allah bizim Allahdı keçər ***günahımızdan.*** (ç)



Göründyü kimi iki sətir mətn tam bir qafiyədir. Bu Azərbaycan mədəniyyətinə xas replərin əksər qisimlərində replərin məsnəvi kimi qafiyələnməsi özünü labüd şəkildə büruzə verməkdədir. Ancaq, bir qisim Azərbaycan rep nümunələrində repin qafiyələnməsində qoşa misranın bir-birilə qafiyələnməsi özünü büruzə verməsinə rəğmən, bəzi hallarda, belə qafiyələnmənin ardıcıllığı pozulur. Bəzi hallarda qoşa misranın bir-birilə qafiyələnməsi ilə bərabər bir sətrin qafiyələnməsi özünü büruzə vermişdir. Repdə bir sətirdəki mətn tam qafiyə hesab edilmişdir. Bir sətir mətnin tərəfdarları bunu qafiyə ilə əlaqəli olmadığını, musiqi ritmi ilə əlaqəli olmasını əsas hesab etmişdilər. H.O.S.T-un (Hava Od Su Torpaq) “4 dostum (PROMETE)” adlı repə diqqət yetirək:

Hər zaman yanımda dörd ***dostum.***

Onlara aid yazdım, ***pozdum.***

Oxudum çox mahnı, çox ***nəğmə.***

Amma onlar əl çəkmədilər ***məndən.***

Nümunəyə diqqət yetirdikdə qafiyələnmə prosesində ardıcıllığın pozulması özünü göstərir. Belə nəticə çıxarmaq olar ki, repdə qafiyələnmə prosesində əsas maraq kəsb edən amil qafiyə və mətnin və ya yalnız mətnin olmasıdır. Qafiyə və mətnlə maraqlananlar mətnə, həmçinin qafiyəyə də diqqət yetirmişlər, yalnız mətn tərəfdarları olanlar isə qafiyəyə fikir verməmiş, çatdırmaq istədikləri fikir və ideyalara üstünlük verməyə cəhd etmiş, bəzi reperlər kobud söz və söyüşdən istifadə etmiş, bəziləri isə uzaq olmağa cəhd etmişdilər: "Reperlərin hamısı söyüşlü rep demir. Demək olar ki, bir çoxu kütləyə çıxmaq üçün, dinləyici qazanmaq üçün normal mətnli replər deyirlər". [4]

Azərbaycan rep nümunələrində başqa müəlliflərin qələmə aldıqları nəzm nümunələri, mahnıları, musiqiləri və s. ilə sintez edilməsi özünü qabarıq şəkildə və tez-tez göstərməkdədir. Bu yalnız Azərbaycan ədəbiyyatı və mədəniyyətinə aid olan nümunələrlə deyil, həmçinin dünya və türk ədəbiyyatı və mədəniyyətinə aid nümunələrlə sintezində də özünü büruzə vermişdir. Məsələn, reper Ramil Nabranın bəstəkar, müğənni Rəhim Rəhimliylə birgə ifa etdiyi "Basdalama damarımı" repində rep və türk mahnısının sözləri sintez olunmuşdur. Repdə

Basdalama damarımı, damarımı,

Qaralda, qaralda qanımı, qırma qanadımı.

Basdalama damarımı, damarımı,

Qaralda, qaralda qanımı, qırma qanadımı.

Rəhim gətir davamını



kimi müraciətdən sonra Rəhim Rəhimlinin sözləri Melih Cevdet Anday, bəstəsi Onno Tunç olan türk mahnısı "Şinanay"ın nəqarətini repdə istifadə edərək remiks kimi özünü büruzə vermişdir:

Şinanay da yavrum şina şinanay

Şinanay da şinanay hoppa şinanay

Azərbaycan replərində başqa nəzm nümunələrindən istifadə, daha doğrusu montaj edilmə özünü tez-tez göstərməsi ilə diqqəti cəlb edir. Belə ki, türk ədibi Ahmet Kutsi Tecerin "Orda bir köy var uzakta" şeirinin

Orda bir yol var, uzakta,

O yol bizim yolumuzdur.

Dönmesek de, varmasak da

---

[4] Mirmehdi Ağaoğlu. Azərbaycanda dindar reperlər də var (**Eon Liga rep qurumunun prodüseri Emin Ali ilə müsahibə)** // https://kulis.az/news/12494

O yol bizim yolumuzdur.

bəndindən "Orda bir yol var uzaqda o yol bizim yolumuz" beytinin, "Dönməsək də varmasaq da" misrasının azərbaycanlı dövlət, siyasi və ictimai xadim, Azərbaycan Respublikasının sabiq (ikinci) prezidenti (1992–1993) Əbülfəz Elçibəyə (1938-2000) həsr olunmuş "Orda bir yol var uzaqda" repində montaj edilməsi əksini tapmışdır. Repdə həmçinin filologiya elmləri doktoru, Azərbaycan Respublikasının xalq şairi Xəlil Rza Ulutürkün (1932-1994) "Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram!" şeirindən misralar təqdim edilmişdir:

Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram!

Qolumdakı zəncirləri qıram gərək, qıram, qıram!

Xəlil Rza Ulutürkə aid misraların "Orda bir yol var uzaqda" repində yerləşdirilməsi başqa müəllifin qələmə aldığı bədii nümunənin başqa əsərə montaj edilməsinin nümunəsidir.

Replərdə başqa müəlliflərə aid uşaq şeirlərindən istifadə olunması maraq kəsb edir. Məsələn, Abdulla Şaiqin "Keçi" şeirindən bir misranı Qurd "Bana bana" repində istifadə etmişdir:

Yalqız gəzib dolanma,

Bir qurd çıxdı qarşına.



**Repin bədii dili**

Rep nümunələrində az sözlə dərin məna ifadə edilməsi diqqətdən yayınmır. Rep nümunələrinin bədii dilinin tərkibini nəzərdən keçirdikdə, replərin dil tərkibinin neologizmlərlə, arxaizmlərlə, varvarizmlərlə, vulqarizmlərlə, dialektizmlərlə zəngin olmasının şahidinə çevrilirik.

Rep nümunələrində dilimizdə yaranan yeni sözlərin işlədilməsi dövrün tələbi, xalqın həyat tərzi ilə sıx bağlıdır. Reperlərin istifadə etdikləri neologizmlər dilimizin imkanları daxilində yaranmış yeni sözlər, həmçinin də başqa dillərdən dilimizə keçmiş yeni sözlərdir. Orxan Zeynallının "U.U.A.A" adlı repində müəllifin dilimizdə yaranan yeni sözlərə müraciət etməsi diqqəti cəlb edir. Xalqın həyat tərzini əks etdirmək üçün elm və texnikanın inkişaf etməsini göstərməklə yanaşı, təsvir etdiyi hadisələrin mahiyyətini qabarda bilir. Məsələn, Orxan Zeynallının istifadə etdiyi neologizmlər başqa dillərdən keçən alınma sözlərdir. Məsələn, "iphone 6" ifadəsi repin yarandığı zamanı ən yeni söz kimi dilimizin leksikonuna daxil olmuşdur:

Evinde çörək yoxdu amma gözləyir ***iphone 6***.

Borc içdə yatır az qala damında var F16.

Replərdə başqa dilə məxsus, ümumişlək xarakter almayan söz və ifadələrin bir priyom kimi istifadə edilməsi diqqəti cəlb edir. Məsələn, Hüseyn Dəryanın "Kef elə" repində varvarizmlərdən istifadə özünü büruzə vermişdir:

Kimisi gəzir ***şestsotda*** guya qaqaşdır qaqaş

Girəndə məhəlləyə tez axıdır göz yaş.

Birisi gəzir Nissan da adını qoyub Gül Toto,

Əlinə pul düşən kimi, gündə oynayır ***loto***.

Hüseyn Dəryanın repdə istifadə etdiyi "loto" sözü özgə dilə məxsus olsa da, dilimizdə ümumişlək sözə çevrilmişdir. Loto üstündə nömrələr və ya şəkillər olan xüsusi kartlar və ya daşlarla oynanılan bir oyunu nəzərdə tutur. Loto oyununun xüsusiyyəti də, rəqəmlərin və ya şəkillərin tam sırasını kim tez örtərsə, o, oyunda qalib hesab olunur. Lakin "şestsot" maşın, əsasən də, Mersedes maşınını nəzərdə tutsa da bu alınma söz dilimizdə, ədəbi dairələrdə ümumişlək xarakter almadığından varvarizm kimi qəbul edilir.

Rep nümunələrində ədəbi dildə işlənilməyən kobud söz və ifadələr həddindən artıqdır. Təbii ki, bədii əsərlərdə kobud söz və ifadələrin işlənilməsi təqdirolunmaz hal olsa da, müəlliflər tərəfindən bu cür söz və ifadələrin işlənilməsi ilə rastlaşırıq. Rep nümunələrində isə vulqar söz və ifadələr çoxluq təşkil etməkdədir. Vulqar söz və ifadələrin repdə çoxluq təşkil etməsi də cəmiyyətdə birmənalı qarşılanmamış, hətta repin inkar və qəbul edilməməsinə şərait yaratmışdır. Vulqar söz və ifadələr işlədilmiş rep nümunələrində təbliğ edilən ideya və fikrin mənasını tam çatdırmağa xidmət etməsi diqqətdən yayınmır. Məsələn, Pasterin (əvvəllər adı Nifrət) ifasında səsləndirilmiş "Cavab ver" repində insanları mübarizəyə səsləyişlə yanaşı, insanların daxili dünyasındakı baş verən təlatümlər əksini tapmışdır. Repdə həyatın fahişəyə bənzədilməsi həyatın insanlar tərəfindən birmənalı qəbul edilməməsinin göstəricisidir:

Mənim içimdə etirazdı,

həyat ***fahişə*** kimidi,

gözlərindən ehtiraslı.

"Dəyirman" qrupunun "Ya Qarabağ, Ya Ölüm" (1996) repində erməni şovinistlərinə qarşı ədəbi dildə işlənməyən sözlərin istifadə edilməsi, vulqarizmin işlənməsi diqqətdən yayınmır. Ədəbi dildə işlənməyən kobud söz işlədilərək təsvir edilən məqamın xarakterik xüsusiyyətini qabartmaq üçün istifadə edilməsi təqdirəlayiqdir. Bu repdə "erməni köpəyi", "ermənninin bicinə" və s. vulqar söz və

ifadələrin işlədilməsinə rast gəlinir. "Erməninin bicinə" ifadəsi dinləyici və ya oxucuda müəyyən təsəvvür yaratmağa nail ola bilir:

Dünya! Yetər! Göz yumma bu insanlıq suçuna.

Bax gözünü qan tutmuş ***ermənin bicinə.***

"Mənimdir" deyə giribdir torpağımın içinə.

Ya bu işə bir son qoy, ya aradan çıx artıq.

Ya QARABAĞ,

Ya Ölüm

Başqa Yolu Yox Artıq!

Qeyd edək ki, ***bic*** sözü özünü əsasən iki mənada əks etdirə bilir. İlk növbədə, bic söz dilimizdə rəsmi nikah olmadan doğulan uşağın, ikicisi isə, çox hiyləgər, fəndgir insanların adlandırılmasıdır.

Rep nümunələrində hər hansı elmə və ya sahəyə aid terminlərin işlədilməsi də maraq doğurur. Promete Ft Coconun birgə ifa etdikləri "Saatlar sayır" adlı repdə müxtəlif sahələrə aid terminlərin işlənilməsi ilə üzləşirik:

Pərdələnib gözlərimiz, gördüklərimizin hamısı ***illüziya.***

Öz yaratdığımız yalan həyatımızda çoxdan ölüb ***diffuziya.***

Biz sanki ***anklav*** bölgəyik, guya ki, muxtariyyətimiz əlimizdə.

Mətndə istifadə edilən ***illüziya*** olmayan bir şeyi həqiqi bir şey kimi qəbul etmək, cisimlərin təhrif olunmuş şəkildə qavranılmasını, həyata keçməsi mümkün olmayan arzuları ifadə edir. ***Diffuziya*** isə təmasda olan maddə hissəciklərinin bir-birinə nüfuz etməsini, qarışmasını əks etdirir. ***Anklav*** ölkə dedikdə isə bir dövlət ərazisinin hamısı başqa bir və ya bir neçə dövlətin quru ərazisi ilə əhatə olunmasıdır. Rep nümunələrində terminlərin yerli-yerində işlənilməsi maraq doğurur. Bu da, reperlərin istifadə etdikləri terminlərin məğzinə vara bilmələri onların müəyyən dünyagörüşünə, savada malik olduqlarını təsdiq edir.

Replərdə məhəlli sözlərə də yer verilməsi diqqətdən yayınmır. Bildiyimiz kimi məhəlli sözlər dialektizmlərdir. Hüseyn Dəryanın "Kef elə" repində məhəlli sözə rast gəlinir. Hüseyn Dərya Bakı şivəsinə aid olan məhəlli sözlərdən istifadə etmişdir. Məsələn, onun "Kef elə" repində ***"həri"*** məhəlli sözünün işlədilməsi ilə üzləşirik:

Bəlkə bir rəvayət də mən deyim, amma

Mənim bu rəvayətim məhəbbətdən deyil,

öz məhləmizdəndi, yəni doğulduğum məhlədən, və

Məhlədə kimnən də soruşsan, hamı

Sənə bir sözü deyəcək, ***həri*** dinləyin:

Aslixanın "Xuliqan" repində də dialektizmlərə müraciət özünü büruzə vermişdir. Məsələn, Aslixan Hüseyn Dərya kimi ***"həri"*** məhəlli sözündən istifadə etmişdir:

***Həri*** biz Xuliqan! (biz xuliqan)

Amma biz Xuliqan! (biz xuliqan)

Biz Xuliqan, ***həri*** biz Xuliqan!

**Repdə bədii təsvir vasitələri**

Dünya rep nümunələrində olduğu kimi Azərbaycan rep nümunələri də məcazların məqamında işlədilməsi ilə zəngindir. Reperlər ifadə etmək istədikləri fikirləri bəzən həqiqi mənasında deyil, məcazi mənada işlədərək ictimaiyyətə çatdırmağa nail olurlar. Rep nümunələrində epitet, təşbeh, metafor, metonimiya, simvol kimi bədii təsvir vasitələrinə müraciət özünü göstərməkdədir.

Replərdə epitetlərdən istifadə zamanı müəllifin müəyyən cəhəti nəzərə çatdırmaq üçün onu ifadə edən sözə qüvvətləndirici başqa sözün əlavə etməsi ilə rastlşmaq mümkündür. Qaraqanın "Bayraq" adlı repində təlqin etdiyi fikri qüvvətləndirmək məqsədi ilə ***"qanlı yağışlar"*** söz birləşməsindən istifadə etmişdir: 

Bağışla, bayraq, ola bilmədim sənin qəhrəmanın.

Bağışla, yağır yağışlar, ***qanlı yağışlar***.

***"Qanlı yağışlar"*** söz birləşməsində məcazilik özünü göstərmiş, məcazi mənalı I növ təyini söz birləşməsidir. Söz birləşməsində birinci tərəf "qanlı" sözü, ikinci tərəfi, yəni "yağışlar" sözünü məcazi şəkildə təyin edib.

Qurdun "Bana bana" repində istifadə edilmiş bəzi sözlərin birinci tərəfi ikinci tərəfi məcazi şəkildə təyin edir. Məsələn,

Ağlımı ağlımı alıb da,

***Pişik gözlü baxışlar***

Bu nümunədə isə "***pişik gözlü baxışlar"*** bədii təyindir. Bu söz birləşməsində "pişik gözlü" sözü ikinci tərəf olan "baxışlar" sözünü məcazi şəkildə təyin edir.

Rep nümunələrində poetik sintaksisə müraciət replərə emosionallıq verərək, repi bədii cəhətdən qüvvətlənməsinə səbəb olur. Replərdə bədii sual, bədii təzad, təkrir, kinayə, mübaliğə, inversiya kimi sintaktik fiqurlardan istifadə edilərək ifadə edilən fikirlərin tam fikir kimi çıxış etməsinə yardım edir.

Azərbaycan replərində tez-tez istifadə edilməsinə rast gəldiyimiz poetik sintaksislərdən biri bədii sualdır. Bədii sual vasitəsilə repdə cavabsız qalan və ya da cavabı tələb olunmayan sualların verilməsi özünü göstərməkdədir. Məsələn, Aslixanın ifa etdiyi “Xuliqan” repində ritorik sualla üzləşirik:

Sən indi gör sənindi Xəzər, Bakı, Yarımada da

***Görəsən necə olur həyat uzaqda bir adada?***

Nümunədə bədii sualdan istifadə edilməsini müşahidə edirik. Ritorik sualla fikir daha qüvvətli şəkildə çatdırılmışdır. Suala repin mətnində cavab axtarılmamışdır. Repin mətnində bu sualın cavabı yoxdur, yəni sual cavabsız qalmışdır. Bu da ritorik sualın xüsusiyyətidir. Bədii sual bədii mətndə cavabsız qalırsa bu sual bədii sualdır.

Replərdə sintaktik fiqurlardan istifadə maraq doğurur. Replərdə eyni sözün və ya ifadənin təkrarlanmasına tez-tez rast gəlinir. Rep müəllifləri ədəbi nümunənin nitqini daha da qüvvətləndirərək təsir gücünü artırmaq üçün təkrirlərə müraciət etmişdilər. Qeyd etmək lazımdır ki, təkrir işlənmə məqamına görə misranın ya əvvəlində, ya da sonunda işlənilməsi ilə nəzərə çarpır. “Cavab ver” repində təkririn anafora kimi növündən istifadə edilmişdir.



***Bəs deyirlər,*** rəhimli olanlar bağışlar.

***Bəs deyirlər,*** axtarıb tapar səni içdən yalvarışlar.

***Bəs deyirlər,*** ölüm yoxdu, savaş yoxdu, onu udub son barışlar.

***Bəs deyirlər,*** mərhəmət var.

Göründüyü kimi anafora misraların əvvəlində iki sözün yan-yana işlənilməsi şəklində müşahidə olunur.

Replərdə məzmunca bir-birinə zidd iki anlayış və ya vəziyyətin qarşılıqlı şəkildə təqdim edilməsinə tez-tez rast gəlinir. Replərdə antitezaların iki yolla təqdim edildiyini müşahidə etmək olur. Birincisi, eyni misra və ya beyt daxilində bir-biri ilə əks məna ifadə edən iki sözün işlədilməsi, ikincisi isə bir-birinə zidd olan hadisə və ya əhval-ruhiyyənin işlədilməsidir. Hüseyn Dəryanın “Kef elə” repində bədii təzadın işlənilməsinə diqqət yetirək:

Doğulduğum məhlədə hamı bilir, sən də bil,

***Bir tərəfi gül - çicək, bir tərəfi zir - zibil,***

***Bir tərəfi cənnət, bir tərəfi cəhənnəm***

Gəlib görənlər bilər, nə cürdü burda aləm.

Hüseyn Dərya "Kef elə" repində işlətdiyi gül-çiçək və zir-zibil, cənnət və cəhənnəm sözləri bir-biri ilə əks məna ifadə edən, antonim sözlər olmaqla antiteza (bədii təzad) yaratmışlar.

Elşad Xosenin "Hər şey bizə azdı" repində də antiteza ilə rastlaşılır:

Kimsə məclisə düşüb içib açarını itirir

İki qardaş pula görə bir-birini didir.

***Yayda isti qışda da soyuq***

Əri xoruz olduğunnan utanır hər toyuq.

***Yasda da toyda da*** kəsilən qoyundu

Buda bir təbiət, buda bir oyundu.

Nümunədə yayda qışda, isti soyuq, yasda toyda sözləri bir-birləri ilə ziddiyyət təşkil etdikləri üçün bədii təzad hesab edilirlər.

Replərdə sözlərin qrammatik sırasının məqsədli (bəzən də məqsədsiz) şəkildə pozulma hadisələri ilə tez-tez rastlaşmaq mümkündür. Məsələn, Qaraqanın "Öz dünyam" repində istifadə edilmiş qrammatik sıranın pozulması özünü göstərmişdir:



Necə danışmasın dilim, əgər görürsə gözlərim?!…

Necə gülüm mən, əgər ağlayırsa yetim körpələr?!…

Necə xoşbəxt olum, qəribəmsə doğma bölgədə?!…

Nümunəyə diqqət yetirdikdə cümlələrin qrammatik qaydaya uyğun tərtib edilməməsi özünü göstərmişdir. Əgər qrammatik qaydaya uyğun tərtib edilsəydi, aşağıdakı şəkildə alınardı:

***Əgər gözlərim görürsə, dilim necə danışmasın,?!…***

***Əgər yetim körpələr ağlayırsa, mən necə gülüm?!***

***Doğma bölgədə qəribəmsə, necə xoşbəxt olum?!…***

Müqayisə apardıqda, əmin oluruq ki, fikrin poetik ifadəsi üçün inversiyaya müraciət etmək zəruridir. Qeyd etməliyik ki, yerdəyişmə, yəni inversiya qrammatik

normanın pozulması hesab edilmir. Rep nümunələrində inversiyaya yol vermiş reperlərə bu qüsur hesab edilməməlidir.

## Nəticə

Repin problematikası müğənnilər və ya opera ifaçıları tərəfindən ifa edilən mahnıların mövzularından daha sərt və müasir sosial durumu əks etdirməsi ilə fərqlənməsinin bir daha şahidinə çevrildik. Bu fərqliyin əhəmiyyət kəsb etməsi Qanlı Yanvar, Xocalı soyqırımı, Aprel döyüşləri, ictimai-siyasi hadisələrin təsvirində, torpaqlarımıza qarşı aparılan mənfur siyasət və s. haqqında məlumatların əksini tapmasında müşahidə edilir. Repi dinlədikcə onun ədəbiyyatımızla sıx bağlı olmasını, onun tərkib hissəsinə çevrilməsini müşahidə etdik. Musiqi ritmi ilə söylənilən rep özündə satiranı, sarkazmı, tənqidi realizmi əks etdirən, ədəbiyyatın nəzm növünün janrlarından olması inkaredilməzdir. Nəticə olaraq, qeyd etməliyik ki, rep musiqi ilə nəzm növünün sintezindən yaranmış mükəmməl sənət nümunəsidir. Bəli, məhz mükəmməl sənət nümunəsi, özündə poeziyanı və musiqini sintez edə bilən sənət nümunəsi...

## Ədəbiyyat

Ağaoğlu, Mirmehdi. Azərbaycanda dindar reperlər də var **(**Eon Liga rep qurumunun prodüseri Emin Ali ilə müsahibə) // https://kulis.az/news/12494;

https://president.az/azerbaijan/symbols;

Kəramət Böyükçölün Cavanşir Quliyevdən aldığı "Yazdığım himni "KQB agenti" sözünə görə geri aldım" adlı müsahibəsi // https://lent.az/news/266178;

Narkotik çox ailələri ağlar qoyub // http://pia.az/amp/?id=23800 // https://publika.az/news/qirmizi/11256.html.